# AZƏRBAYCAN RESPUBLIKASıNıN KONSTITUSIYAS;
# MADDƏ 1-80

## TƏLİMÇİ:

RİZVAN FİKRƏTOĞLU

0513461438



# KONSTITUSIYAYA GIRIŞ

- **«Konstitusiya» latınca «constitutio» sözündən olub mənası «quruluş», «təsisat» deməkdir.**
- ***1995-ci il noyabrın 12-də ümumxalq səsverməsində (referendumda) qəbul edilmişdir.***
- ***1995-ci il noyabrın 27-dən qüvvəyə minmişdir.***
- ***2002-ci il avqustun 24-də ümumxalq səsverməsində (referendumda) qəbul edilmiş dəyişikliklərlə.***
- ***2009-cu il martın 18-də ümumxalq səsverməsində (referendumda) qəbul edilmiş əlavə və dəyişikliklərlə.***
- ***2016-cı il sentyabrın 26-da keçirilmiş ümumxalq səsverməsində (referendumda) qəbul edilmiş əlavə və dəyişikliklərlə.***

**158 maddə, 12 fəsil, 5 bölmədən, PREMBULA (ön söz) və 12 keçid müddəadan ibarətdir.**

# BİRİNCİ BÖLMƏ

# ÜMUMİ MÜDDƏALAR

## I fəsil

## XALQ HAKİMİYYƏTİ

# MADDƏ 1. HAKIMIYYƏTIN MƏNBƏYI

- **AR-da dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır.**
- **Azərbaycan xalqı AR ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan AR vətəndaşlarından ibarətdir; bu isə beynəlxalq hüquqla müəyyənləşdirilmiş normaları istisna etmir.**

# MADDƏ 2. XALQıN SUVERENLIYI

- **Sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur.**
- **Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi - referendum və *ümumi, bərabər və birbaşa seçki hüququ* əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsi ilə həyata keçirir.**

# MADDƏ 3. ÜMUMXALQ SƏSVERMƏSİ-REFERENDUM YOLU ILƏ HƏLL EDILƏN MƏSƏLƏLƏR

- **I. Azərbaycan xalqı öz hüquqları və mənafeləri ilə bağlı olan hər bir məsələni referendumla həll edə bilər.**
- **II. Aşağıdakı məsələlər yalnız referendumla həll oluna bilər:**
- **1) AR Konstitusiyasının qəbul edilməsi və ona dəyişikliklər edilməsi;**
- **2) AR-ın dövlət sərhədlərinin dəyişdirilməsi.**
- **III. Aşağıdakı məsələlər üzrə referendum keçirilə bilməz:**
- **1) vergilər və dövlət büdcəsi;**
- **2) amnistiya və əfv etmə;**
- **3) seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi müvafiq olaraq qanunvericilik və (və ya) icra hakimiyyəti orqanlarının səlahiyyətlərinə aid edilmiş vəzifəli şəxslərin seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi.**

# MADDƏ 4. XALQı TƏMSIL ETMƏK HÜQUQU

- **Xalqın seçdiyi səlahiyyətli nümayəndələrindən başqa heç kəsin xalqı təmsil etmək, xalqın adından danışmaq və xalqın adından müraciət etmək hüququ yoxdur.**

# MADDƏ 5. XALQıN VAHIDLIYI

- **Azərbaycan xalqı vahiddir.**
- **Azərbaycan xalqının vahidliyi Azərbaycan dövlətinin təməlini təşkil edir. AR bütün AR vətəndaşlarının ümumi və bölünməz vətənidir. (ÜB)**

# MADDƏ 6. HAKIMIYYƏTIN MƏNIMSƏNILMƏSINƏ YOL VERILMƏMƏSI

- **Azərbaycan xalqının heç bir hissəsi, sosial qrup, təşkilat və ya heç bir şəxs hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz.**
- **Hakimiyyətin mənimsənilməsi xalqa qarşı <u>ən ağır</u> cinayətdir.**

# MADDƏ 7. AZƏRBAYCAN DÖVLƏTI

## I I  f ə s i l

## D Ö V L Ə T İ N  Ə S A S L A R I

- Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar ***respublikadır.***
- AR-da dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla xarici məsələlərdə isə yalnız AR--ın tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır.
- AR-da dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir:
- - qanunvericilik hakimiyyətini AR-ın MM-i həyata keçirir;
- - icra hakimiyyəti AR-ın Prezidentinə mənsubdur;
- - məhkəmə hakimiyyətini AR-ın məhkəmələri həyata keçirir.
- Bu Konstitusiyanın müddəalarına əsasən qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər.

# MADDƏ 8. AZƏRBAYCAN DÖVLƏTININ BAŞÇıSı

- **Azərbaycan dövlətinin başçısı AR-ın Prezidentidir. O, ölkənin daxilində və xarici münasibətlərdə Azərbaycan dövlətini təmsil edir.**
- **AR-ın Prezidenti Azərbaycan xalqının vahidliyini təcəssüm etdirir və Azərbaycan dövlətçiliyinin varisliyini təmin edir.**
- **AR-ın Prezidenti Azərbaycan dövlətinin müstəqilliyinin, ərazi bütövlüyünün və AR-ın tərəfdar çıxdığı beynəlxalq müqavilələrə riayət olunmasının təminatçısıdır.**
- **AR-ın Prezidenti məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısıdır.**

# MADDƏ 9. SILAHLı QÜVVƏLƏR

- *AR öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə Silahlı Qüvvələr yaradır. Silahlı Qüvvələr **Azərbaycan Ordusundan və başqa silahlı birləşmələrdən** ibarətdir.*
- **AR başqa dövlətlərin müstəqilliyinə qəsd vasitəsi kimi və beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd edir.**
- **AR-nın Prezidenti AR-ın Silahlı Qüvvələrinin Ali baş komandanıdır.**

# MADDƏ 10. BEYNƏLXALQ MÜNASIBƏTLƏRIN PRINSIPLƏRI

- AR başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur.

# MADDƏ 11. ƏRAZI

- **AR-ın ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. (VTB)**
- **AR-ın daxili suları, Xəzər dənizinin (gölünün) AR-a mənsub olan bölməsi, AR-ın üzərindəki hava məkanı AR ərazisinin tərkib hissəsidir.**
- **AR-ın ərazisi özgəninkiləşdirilə bilməz. AR öz ərazisinin heç bir hissəsini heç bir şəkildə kimsəyə vermir; yalnız AR MM-nin qərarı ilə Azərbaycanın bütün əhalisi arasında referendum keçirmək yolu ilə Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər.**

# MADDƏ 12. DÖVLƏTIN ALI MƏQSƏDI

- **İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının, AR-nın vətəndaşlarına *layiqli həyat səviyyəsinin təmin edilməsi* dövlətin ali məqsədidir.**
- **Bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları AR-ın tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir.**

# MADDƏ 13. MÜLKIYYƏT

- **AR-da mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur.**
- **Mülkiyyət dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti növündə ola bilər.**
- **Mülkiyyətdən insan və vətəndaş hüquqları və azadlıqları, cəmiyyətin və dövlətin mənafeləri, şəxsiyyətin ləyaqəti əleyhinə istifadə edilə bilməz.**

# MADDƏ 14. TƏBII EHTIYATLAR

- **Təbii ehtiyatlar hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən AR-a mənsubdur.**

# MADDƏ 15. İQTISADI INKIŞAF VƏ DÖVLƏT

- **AR-da iqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir.**
- **Azərbaycan dövləti bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir.**

# MADDƏ 16. SOSIAL INKIŞAF VƏ DÖVLƏT

- **Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır.**
- **Azərbaycan dövləti mədəniyyətin, təhsilin, səhiyyənin, elmin, incəsənətin inkişafına yardım göstərir, ölkənin təbiətini, xalqın tarixi, maddi və mənəvi irsini qoruyur.**

# MADDƏ 17. AILƏ, UŞAQLAR VƏ DÖVLƏT

- Cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir.
- Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir.
- Valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqlar dövlətin himayəsindədirlər.
- Uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etmək qadağandır.
- 15 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər.
- Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir.

# MADDƏ 18. DIN VƏ DÖVLƏT

- AR-da din dövlətdən ayrıdır. Bütün dini etiqadlar qanun qarşısında bərabərdir.
- İnsan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlərin (dini cərəyanların) yayılması və təbliği qadağandır.
- Dövlət təhsil sistemi dünyəvi xarakter daşıyır.

# MADDƏ 19. PUL VAHIDI

- **AR-ın pul vahidi manatdır.**
- **Pul nişanlarının tədavülə buraxılması və tədavüldən çıxarılması hüququ yalnız Mərkəzi Banka mənsubdur. AR-ın Mərkəzi Bankı dövlətin müstəsna mülkiyyətindədir.**
- **AR-ın ərazisində manatdan başqa pul vahidlərinin ödəniş vasitəsi kimi işlədilməsi qadağandır.**

# MADDƏ 20. DÖVLƏTIN BORCLARıNA QOYULAN MƏHDUDIYYƏTLƏR

- **Azərbaycan dövlətinə qarşı qiyama və dövlət çevrilişinə kömək məqsədi ilə alınmış borclar AR tərəfindən öhdəlik kimi qəbul edilə və ödənilə bilməz.**

# MADDƏ 21. DÖVLƏT DILI

- AR-ın dövlət dili Azərbaycan dilidir. AR Azərbaycan dilinin inkişafını təmin edir.
- AR əhalinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafını təmin edir.

# MADDƏ 22. PAYTAXT

- **AR-ın paytaxtı Bakı şəhəridir.**

# MADDƏ 23. AZƏRBAYCAN DÖVLƏTININ RƏMZLƏRI

- **AR-ın dövlət rəmzləri AR-ın Dövlət bayrağı, AR-ın Dövlət gerbi və AR-ın Dövlət himnidir.**
- **AR-ın Dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir və qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.**
- **AR Dövlət bayrağının və AR Dövlət gerbinin təsviri, AR Dövlət himninin musiqisi və mətni Konstitusiya qanunu ilə müəyyən edilir.**

# İKİNCİ BÖLMƏ
# ƏSAS HÜQUQLAR, AZADLIQLAR VƏ VƏZİFƏLƏR

## III fəsil
## ƏSAS İNSAN VƏ VƏTƏNDAŞ HÜQUQLARI VƏ AZADLIQLARI

# MADDƏ 24. İNSAN VƏ VƏTƏNDAŞ HÜQUQLARıNıN VƏ AZADLıQLARıNıN ƏSAS PRINSIPI

- *İnsan ləyaqəti qorunur və ona hörmət edilir.*
- **Hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır. (TAP)**
- **Hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir.** ***Hüquqlardan sui-istifadəyə yol verilmir.***

# MADDƏ 25. BƏRABƏRLIK HÜQUQU

- **Hamı qanun və məhkəmə** qarşısında bərabərdir.
- **Kişi ilə qadının** eyni hüquqları və azadlıqları vardır.
- III Dövlət, irqindən, *etnik mənsubiyyətindən*, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. **İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını** irqi, *etnik*, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.
- **Heç kəsə** bu maddənin III hissəsində göstərilən əsaslara görə zərər vurula bilməz, güzəştlər və ya imtiyazlar verilə bilməz, yaxud güzəştlərin və ya imtiyazların verilməsindən imtina oluna bilməz.
- **Hüquq və vəzifələrlə** bağlı qərarlar qəbul edən dövlət orqanları və dövlət hakimiyyəti səlahiyyətlərinin daşıyıcıları ilə münasibətlərdə hər kəsin bərabər hüquqları təmin edilir.
- *Sağlamlıq imkanları məhdud olanlar, onların məhdud imkanlarına görə həyata keçirilməsi çətinləşən hüquq və vəzifələrdən başqa, bu Konstitusiyada təsbit olunmuş bütün hüquqlardan istifadə edir və vəzifələri daşıyırlar.*

# MADDƏ 26. İNSAN VƏ VƏTƏNDAŞ HÜQUQLARıNıN VƏ AZADLıQLARıNıN MÜDAFIƏSI

- **Hər kəsin qanunla qadağan olunmayan** ***üsul və vasitələrlə*** **öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır.**
- ***Dövlət*** **hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir.**

# MADDƏ 27. YAŞAMAQ HÜQUQU

- **Hər kəsin yaşamaq hüququ vardır.**
- ***Dövlətə silahlı basqın zamanı düşmən əsgərlərinin öldürülməsi, məhkəmənin qanuni qüvvəyə minmiş hökmünə əsasən ölüm cəzasının tətbiqi və qanunla nəzərdə tutulmuş digər hallar istisna olmaqla, hər bir şəxsin yaşamaq hüququ toxunulmazdır.***
- **Müstəsna cəza tədbiri kimi ölüm cəzası, tam ləğv edilənədək , yalnız dövlətə, insan həyatına və sağlamlığına qarşı xüsusilə ağır cinayətlərə görə qanunla müəyyən edilə bilər.**
- **Qanunla nəzərdə tutulmuş** ***zəruri müdafiə, son zərurət, cinayətkarın yaxalanması və tutulması, həbsdə olanın həbs yerindən qaçmasının qarşısının alınması, dövlətə qarşı qiyamın yatırılması və ya dövlət çevrilişinin qarşısının alınması, ölkəyə silahlı basqın edilməsi halları istisna olmaqla insana qarşı silah işlədilməsinə yol verilmir.***

# MADDƏ 28. AZADLıQ HÜQUQU

- **Hər kəsin azadlıq hüququ vardır.**
- **Azadlıq hüququ yalnız qanunla nəzərdə tutulmuş qaydada tutulma, həbsəalma və ya azadlıqdan məhrumetmə yolu ilə məhdudlaşdırıla bilər.**
- **Qanuni surətdə AR-ın ərazisində olan hər kəs sərbəst hərəkət edə bilər, özünə yaşayış yeri seçə bilər və AR-ın ərazisindən kənara gedə bilər.**
- **AR vətəndaşlarının hər zaman maneəsiz öz ölkəsinə qayıtmaq hüququ vardır.**

# MADDƏ 29. MÜLKIYYƏT HÜQUQU

- **Hər kəsin mülkiyyət hüququ vardır.**
- **Mülkiyyətin heç bir növünə üstünlük verilmir. Mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur.**
- **Hər kəsin mülkiyyətində daşınar və daşınmaz əmlak ola bilər. Mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir.**
- **Heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz. Əmlakın tam müsadirəsinə yol verilmir. Dövlət ehtiyacları üçün mülkiyyətin özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə yol verilə bilər.**
- ***Xüsusi mülkiyyət sosial öhdəliklərə səbəb olur.***
- ***Sosial ədalət və torpaqlardan səmərəli istifadə məqsədi ilə torpaq üzərində mülkiyyət hüququ qanunla məhdudlaşdırıla bilər.***
- **Dövlət vərəsəlik hüququna təminat verir.**

# MADDƏ 30. ƏQLI MÜLKIYYƏT HÜQUQU
# BIR NÖV PATENT

- **Hər kəsin əqli mülkiyyət hüququ vardır.**
- **Müəlliflik hüququ, ixtiraçılıq hüququ və əqli mülkiyyət hüququnun başqa növləri qanunla qorunur.**

# MADDƏ 31. TƏHLÜKƏSIZ YAŞAMAQ HÜQUQU

- **Hər kəsin təhlükəsiz yaşamaq hüququ vardır.**
- **Qanunda *nəzərdə tutulmuş hallar istisna olmaqla*, şəxsin həyatına, fiziki və mənəvi sağlamlığına, mülkiyyətinə, mənzilinə qəsd etmək, ona qarşı zor işlətmək qadağandır.**

# MADDƏ 32. ŞƏXSI TOXUNULMAZLıQ HÜQUQU

- Hər kəsin şəxsi toxunulmazlıq hüququ vardır.
- Hər kəsin şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ vardır. Qanunla nəzərdə tutulan hallardan başqa, şəxsi və ailə həyatına müdaxilə etmək qadağandır. Hər kəsin şəxsi və ailə həyatına qanunsuz müdaxilədən müdafiə hüququ vardır.
- Öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın toplanılmasına, saxlanılmasına, istifadəsinə və yayılmasına yol verilmir. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, heç kəs onun xəbəri olmadan və ya etirazına baxmadan izlənilə bilməz, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qoyula bilməz.
- Hər kəsin yazışma, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatın sirrini saxlamaq hüququna dövlət təminat verir. Bu hüquq qanunla nəzərdə tutulmuş qaydada cinayətin qarşısını almaqdan və ya cinayət işinin istintaqı zamanı həqiqəti üzə çıxarmaqdan ötrü məhdudlaşdırıla bilər.
- Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, hər kəs onun haqqında toplanmış məlumatlarla tanış ola bilər. Hər kəsin onun barəsində toplanmış və həqiqətə uyğun olmayan, tam olmayan, habelə qanunun tələbləri pozulmaqla əldə edilmiş məlumatların düzəldilməsini və ya çıxarılmasını (ləğv edilməsini) tələb etmək hüququ vardır.
- *Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, üçüncü şəxslər haqqında məlumat almaq məqsədi ilə* elektron formada və ya kağız üzərində aparılan informasiya ehtiyatlarına daxil olmaq *qadağandır.*
- *Məlumatın aid olduğu şəxsin buna razılığını aşkar ifadə etdiyi hallar, ayrı-seçkiliyə yol verməmək şərtilə anonim xarakterli statistik məlumatların emalı və qanunun yol verdiyi digər hallar istisna olmaqla, informasiya texnologiyalarından şəxsi həyata, o cümlədən əqidəyə, dini və etnik mənsubiyyətə dair məlumatların açıqlanması üçün istifadə edilə bilməz.*
- *Fərdi məlumatların dairəsi, habelə onların emalı, toplanması, ötürülməsi, istifadəsi və mühafizəsi şərtləri qanunla müəyyən edilir*

# MADDƏ 33. MƏNZIL TOXUNULMAZLıĞı HÜQUQU

- **Hər kəsin mənzil toxunulmazlığı hüququ vardır.**
- **Qanunla müəyyən edilmiş hallar və ya məhkəmə qərarı istisna olmaqla, mənzildə yaşayanların iradəsi ziddinə heç kəs mənzilə daxil ola bilməz.**

# MADDƏ 34. NIKAH HÜQUQU

- Hər kəsin *qanunla* nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququ vardır.
- Nikah könüllü razılıq əsasında bağlanılır. Heç kəs zorla evləndirilə (ərə verilə) bilməz.
- Nikah və ailə dövlətin himayəsindədir. Analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir. Dövlət çoxuşaqlı ailələrə yardım göstərir.
- Ər ilə arvadın hüquqları bərabərdir. Uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək valideynlərin həm hüququ, həm də borcudur.
- Valideynlərə hörmət etmək, onların qayğısına qalmaq uşaqların borcudur. 18 yaşına çatmış əmək qabiliyyətli uşaqlar əmək qabiliyyəti olmayan valideynlərini saxlamağa borcludurlar.

# MADDƏ 35. ƏMƏK HÜQUQU

- Əmək **fərdi və ictimai** rifahın əsasıdır.
- **Hər kəsin** əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır.
- ***Heç kəs zorla işlədilə bilməz.***
- Əmək müqavilələri sərbəst bağlanılır. **Heç kəs** əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz.
- Məhkəmə qərarı əsasında şərtləri və müddətləri qanunla nəzərdə tutulan məcburi əməyə cəlb etmək, hərbi xidmət zamanı səlahiyyətli şəxslərin əmrlərinin yerinə yetirilməsi ilə əlaqədar işlətmək, fövqəladə vəziyyət zamanı və hərbi vəziyyət vətəndaşlara tələb olunan işləri gördürmək hallarına yol verilir.
- **Hər kəsin** təhlükəsiz və sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əmək haqqı miqdarından az olmayan haqq almaq hüququ vardır.
- İşsizlərin dövlətdən sosial müavinət almaq hüququ vardır.
- Dövlət işsizliyin aradan qaldırılması üçün bütün imkanlarından istifadə edir.

# MADDƏ 36. TƏTIL HÜQUQU

- **Hər kəsin təkbaşına və ya başqaları ilə birlikdə tətil etmək hüququ vardır.**
- **Əmək müqaviləsi əsasında işləyənlərin tətil etmək hüququ yalnız qanunla nəzərdə tutulmuş hallarda məhdudlaşdırıla bilər. Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmət edən hərbi qulluqçular və mülki şəxslər tətil edə bilməzlər.**
- **Fərdi və kollektiv əmək mübahisələri qanunla müəyyənləşdirilmiş qaydada həll edilir.**
- ***Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, lokaut qadağandır.***

# MADDƏ 37. İSTIRAHƏT HÜQUQU

- **Hər kəsin istirahət hüququ vardır.**
- **Əmək müqaviləsi ilə işləyənlərə qanunla müəyyən edilmiş, lakin gündə 8 saatdan artıq olmayan iş günü, istirahət və bayram günləri, ildə azı bir dəfə 21 təqvim günündən az olmayan ödənişli məzuniyyət verilməsi təmin edilir.**

# MADDƏ 38. SOSIAL TƏMINAT HÜQUQU

- **Hər kəsin sosial təminat hüququ vardır.**
- **Yardıma möhtac olanlara kömək etmək ilk növbədə onların ailə üzvlərinin borcudur.**
- **Hər kəs qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını itirdiyinə, əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat hüququna malikdir.**
- **Təqaüdlərin və sosial müavinətlərin minimum məbləği qanunla müəyyən edilir.**
- **Dövlət xeyriyyəçilik fəaliyyətinin, *könüllü sosial sığortanın və sosial təminatın başqa növlərinin inkişafı üçün imkanlar* yaradır.**

# MADDƏ 39. SAĞLAM ƏTRAF MÜHITDƏ YAŞAMAQ HÜQUQU

- **Hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır.**
- **Hər kəsin ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüququ vardır.**
- **Heç kəs ətraf mühitə, təbii ehtiyatlara qanunla müəyyən edilmiş hədlərdən artıq təhlükə törədə və ya zərər vura bilməz.**
- **Dövlət ekoloji tarazlığın saxlanılmasına, yabanı bitkilərin və vəhşi heyvanların qanunla müəyyən edilmiş növlərinin qorunmasına təminat verir.**

# MADDƏ 40. MƏDƏNIYYƏT HÜQUQU

- **Hər kəsin** mədəni həyatda iştirak etmək, mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə etmək hüququ vardır.
- **Hər kəs** tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır.

# MADDƏ 41. SAĞLAMLıĞıN QORUNMASı HÜQUQU

- **Hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ vardır.**
- **Dövlət müxtəlif mülkiyyət növləri əsasında fəaliyyət göstərən səhiyyənin bütün növlərinin inkişafı üçün zəruri tədbirlər görür, sanitariya-epidemiologiya salamatlığına təminat verir, tibbi sığortanın müxtəlif növləri üçün imkanlar yaradır.**
- **İnsanların *həyatı və sağlamlığı* üçün təhlükə törədən faktları və halları gizlədən vəzifəli şəxslər qanun əsasında məsuliyyətə cəlb edilirlər.**

# MADDƏ 42. TƏHSIL HÜQUQU

- **Hər bir *vətəndaşın* təhsil almaq hüququ vardır.**
- **Dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir.**
- **Təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir.**
- **Maddi vəziyyətdən *asılı olmayaraq* istedadlı şəxslərin təhsili davam etdirməsinə dövlət zəmanət verir.**
- **Dövlət minimum təhsil standartlarını müəyyən edir.**

# MADDƏ 43. MƏNZIL HÜQUQU

- **Heç kəs** yaşadığı mənzildən qanunsuz məhrum edilə bilməz.
- Dövlət yaşayış binalarının və evlərin tikintisinə rəvac verir, insanların mənzil hüququnu gerçəkləşdirmək üçün xüsusi tədbirlər görür.

# MADDƏ 44. MILLI MƏNSUBIYYƏT HÜQUQU

- **Hər kəsin milli mənsubiyyətini** ***qoruyub saxlamaq hüququ vardır.***
- **Heç kəs milli mənsubiyyətini** ***dəyişdirməyə məcbur edilə bilməz.***

# MADDƏ 45. ANA DILINDƏN ISTIFADƏ HÜQUQU

- **Hər kəsin ana dilindən istifadə etmək hüququ vardır. Hər kəsin istədiyi dildə *tərbiyə və təhsil almaq, yaradıcılıqla* məşğul olmaq hüququ vardır.**
- **Heç kəs ana dilindən istifadə hüququndan məhrum edilə bilməz.**

# MADDƏ 46. ŞƏRƏF VƏ LƏYAQƏTIN MÜDAFIƏSI HÜQUQU

- **Hər kəsin** öz şərəf və ləyaqətini müdafiə etmək hüququ vardır.
- ***Şəxsiyyətin ləyaqəti dövlət tərəfindən qorunur.*** Heç bir hal şəxsiyyətin ləyaqətinin alçaldılmasına əsas verə bilməz.
- **Heç kəsə** *işgəncə və əzab verilə bilməz.* **Heç kəs** insan ləyaqətini alçaldan rəftara və ya cəzaya məruz qala bilməz. Özünün könüllü razılığı olmadan **heç kəsin** üzərində tibbi, elmi və başqa təcrübələr aparıla bilməz.

# MADDƏ 47. FIKIR VƏ SÖZ AZADLıĞı

- **Hər kəsin fikir və söz azadlığı vardır.**
- **Heç kəs öz fikir və əqidəsini açıqlamağa və ya fikir və əqidəsindən dönməyə məcbur edilə bilməz.**
- **İrqi, milli, dini, sosial *və hər hansı digər meyara əsaslanan* ədavət və düşmənçilik oyadan təşviqata və təbliğata yol verilmir.**

# MADDƏ 48. VICDAN AZADLıĞı

- **Hər kəsin** vicdan azadlığı vardır.
- **Hər kəsin** dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır.
- Dini mərasimlərin yerinə yetirilməsi, **ictimai qaydanı pozmursa və ya ictimai əxlaqa zidd deyildirsə, sərbəstdir.**
- **Dini etiqad və əqidə** hüquq pozuntusuna bəraət qazandırmır.
- **Heç kəs** öz dini etiqadını və əqidəsini ifadə etməyə (nümayiş etdirməyə), dini mərasimləri yerinə yetirməyə və ya dini mərasimlərdə iştirak etməyə məcbur edilə bilməz.

# MADDƏ 49. SƏRBƏST TOPLAŞMAQ AZADLıĞı

- **Hər kəsin başqaları ilə birlikdə sərbəst toplaşmaq azadlığı vardır.**
- **Hər kəsin başqaları ilə birlikdə müvafiq dövlət orqanlarını qabaqcadan xəbərdar etməklə, *ictimai qaydanı və ya ictimai əxlaqı pozmamaq şərtilə,*dinc, silahsız yığışmaq, yığıncaqlar, mitinqlər, nümayişlər, küçə yürüşləri keçirmək, piketlər düzəltmək hüququ vardır.**

# MADDƏ 50. MƏLUMAT AZADLıĞı

- **Hər kəsin** **istədiyi məlumatı** **qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı** **vardır.**
- **Kütləvi informasiyanın** **azadlığına təminat verilir. KIV-də, o cümlədən mətbuatda** **dövlət senzurası qadağandır.**
- **Hər kəsin** KİV-də ***dərc edilən və onun hüquqlarını pozan və ya mənafelərinə xələl gətirən məlumatı təkzib etmək və ya ona cavab vermək hüququna təminat verilir.***

# MADDƏ 51. YARADıCıLıQ AZADLıĞı

- **Hər kəsin** yaradıcılıq azadlığı vardır.
- **Dövlət** ədəbi-bədii, elmi-texniki və başqa yaradıcılıq növlərinin azad həyata keçirilməsinə təminat verir.

# MADDƏ 52. VƏTƏNDAŞLıQ HÜQUQU

- **Azərbaycan dövlətinə mənsub olan, onunla siyasi və hüquqi bağlılığı, habelə qarşılıqlı hüquq və vəzifələri olan şəxs AR-ın vətəndaşıdır. AR-ın ərazisində və ya AR-ın vətəndaşlarından doğulmuş şəxs AR-ın vətəndaşıdır. Valideynlərindən biri AR-ın vətəndaşı olan şəxs AR-ın vətəndaşıdır.**

# MADDƏ 53. VƏTƏNDAŞLıQ HÜQUQUNUN TƏMINATı

- **AR-ın vətəndaşı AR vətəndaşlığından** ***(onun qanunla müəyyən edilmiş itirilmə halları istisna olmaqla)*** **mərhum edilə bilməz.**
- **AR-ın vətəndaşı heç bir halda** ***AR-dan qovula və ya xarici dövlətə verilə bilməz.***
- **AR onun ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan AR vətəndaşlarının hüquqi müdafiəsinə təminat verir və onlara hamilik edir.**

# MADDƏ 54. CƏMIYYƏTIN VƏ DÖVLƏTIN SIYASI HƏYATıNDA IŞTIRAK HÜQUQU

- AR vətəndaşlarının **cəmiyyəti və dövlətin siyasi həyatında maneəsiz iştirak etmək hüququ** vardır.
- **Dövlətə qarşı qiyama və ya dövlət çevrilişinə** müstəqil müqavimət göstərmək AR-ın hər bir vətəndaşının hüququdur.

# MADDƏ 55. DÖVLƏTIN IDARƏ OLUNMASıNDA IŞTIRAK ETMƏK HÜQUQU

- AR vətəndaşlarının dövlətin idarə olunmasında iştirak etmək hüququ vardır. Bu hüququ onlar bilavasitə və ya nümayəndələri vasitəsi ilə həyata keçirə bilərlər.
- AR-ın vətəndaşları dövlət orqanlarında qulluq etmək imkanına malikdirlər. Dövlət orqanlarının vəzifəli şəxsləri AR-ın vətəndaşları sırasından təyin edilirlər. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər dövlət qulluğuna qanunla müəyyənləşdirilmiş qaydada qəbul edilə bilərlər.

# MADDƏ 56. SEÇKI HÜQUQU

- **AR vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ vardır.**
- **Məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslərin seçkilərdə, habelə referendumda iştirak etmək hüququ yoxdur.**
- **Hərbi qulluqçuların, hakimlərin, dövlət məmurlarının, din xadimlərinin, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum edilmiş şəxslərin, bu Konstitusiyada və qanunda nəzərdə tutulan digər şəxslərin *seçilmək* hüququ qanunla məhdudlaşdırıla bilər.**

# MADDƏ 57. MÜRACIƏT ETMƏK HÜQUQU

- **AR vətəndaşlarının dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ vardır. *Hərbi qulluqçular bu hüquqdan yalnız fərdi qaydada istifadə edə bilərlər.* Hər bir müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətlərdə yazılı cavab verilməlidir.**
- **AR vətəndaşlarının dövlət orqanlarının və onların vəzifəli şəxslərinin, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, habelə ayrı-ayrı vətəndaşların fəaliyyətini və ya işini tənqid etmək hüququ vardır. Tənqidə görə təqib qadağandır. Təhqir və böhtan tənqid sayıla bilməz.**

# MADDƏ 58. BIRLƏŞMƏK HÜQUQU

- **Hər kəsin** **başqaları ilə birləşmək hüququ vardır.**
- **Hər kəs** **istənilən birlik, o cümlədən siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai birlik yaratmaq və ya mövcud birliyə daxil olmaq hüququna malikdir. Bütün birliklərin sərbəst fəaliyyətinə təminat verilir.**
- **Heç kəs hər hansı** **birliyə daxil olmağa və onun üzvlüyündə qalmağa məcbur edilə bilməz.**
- **AR-ın** ***bütün ərazisində və ya hər hansı hissəsində qanuni dövlət hakimiyyətini zorla devirmək məqsədi, cinayət hesab edilən digər məqsədlər güdən və ya cinayətkar üsullardan istifadə edən birliklər qadağandır.*** **Konstitusiyanı və qanunları pozan birliklərin fəaliyyətinə yalnız məhkəmə qaydasında xitam verilə bilər.**

# MADDƏ 59. AZAD SAHIBKARLıQ HÜQUQU

- **Hər kəs öz imkanlarından, qabiliyyətindən və <u>əmlakından sərbəst istifadə edərək</u> təkbaşına və ya başqaları ilə birlikdə azad sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər.**
- ***Dövlət sahibkarlıq sahəsində yalnız dövlət maraqlarının, insan həyatının və sağlamlığının müdafiəsi ilə bağlı tənzimləməni həyata keçirir.***

# MADDƏ 60. HÜQUQ VƏ AZADLıQLARıN INZIBATI VƏ MƏHKƏMƏ TƏMINATı

- **Hər kəsin hüquq və azadlıqlarının *inzibati qaydada və məhkəmədə müdafiəsinə* təminat verilir.**
- **Hər kəsin hüququ var ki, onun işinə qərəzsiz yanaşılsın və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılsın.**
- **Hər kəsin inzibati icraat və məhkəmə prosesində dinlənilmək hüququ vardır.**
- **Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, hüquqi şəxslərin, bələdiyyələrin və vəzifəli şəxslərin hərəkətlərindən və hərəkətsizliyindən inzibati qaydada və məhkəməyə şikayət edə bilər.**

# MADDƏ 61. HÜQUQI YARDıM ALMAQ HÜQUQU

- **Hər kəsin** yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ vardır.
- **Qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardım ödənişsiz,** dövlət hesabına göstərilir.
- **Hər bir şəxsin** səlahiyyətli dövlət orqanları tərəfindən tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququ vardır.

# MADDƏ 62. MƏHKƏMƏ AIDIYYƏTININ DƏYIŞDIRILMƏSINƏ YOL VERILMƏMƏSI

- **Hər kəsin** onun işinə qanunla müəyyən edilmiş məhkəmədə baxılması hüququ vardır. **Şəxsin razılığı olmadan** onun işinə başqa məhkəmədə baxılmasına yol verilmir.

# MADDƏ 63. TƏQSIRSIZLIK PREZUMPSIYASı

- **Hər kəsin təqsirsizlik prezumpsiyası hüququ vardır. Cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxs, onun təqsiri *qanunla* nəzərdə tutulan qaydada sübuta yetirilməyibsə və bu barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü yoxdursa, təqsirsiz sayılır.**
- **Şəxsin təqsirli olduğuna əsaslı şübhələr varsa, onun təqsirli bilinməsinə yol verilmir.**
- **Cinayətin törədilməsində təqsirləndirilən şəxs özünün təqsirsizliyini sübuta yetirməyə borclu deyildir.**
- **Ədalət mühakiməsi həyata keçirilərkən qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə oluna bilməz.**
- **Məhkəmənin hökmü olmasa, kimsə cinayətdə təqsirli sayıla bilməz.**

# MADDƏ 64. BIR CINAYƏTƏ GÖRƏ TƏKRARƏN MƏHKUM ETMƏYƏ YOL VERILMƏMƏSI

- **Heç kəs bir cinayətə görə təkrarən məhkum edilə bilməz.**

# MADDƏ 65. MƏHKƏMƏYƏ TƏKRAR MÜRACIƏT HÜQUQU

- **Məhkəmənin məhkum etdiyi hər bir şəxsin öz barəsində çıxarılmış hökmə qanunla nəzərdə tutulan qaydada yuxarı məhkəmədə yenidən baxılması, habelə özünün əfv edilməsi və cəzasının yüngülləşdirilməsi haqqında müraciət etmək hüququ vardır.**

# MADDƏ 66. QOHUMLARıN ƏLEYHINƏ IFADƏ VERMƏYƏ MƏCBUR ETMƏYƏ YOL VERILMƏMƏSI

- **Heç kəs** özünə, arvadına (ərinə), övladlarına, valideynlərinə, qardaşına, bacısına qarşı ifadə verməyə məcbur edilə bilməz. Əleyhinə ifadə verilməsi məcburi olmayan qohumların tam siyahısı qanunla müəyyən edilir.

# MADDƏ 67. TUTULAN, HƏBSƏ ALıNAN VƏ CINAYƏT TÖRƏDILMƏSINDƏ TƏQSIRLƏNDIRILƏN ŞƏXSLƏRIN HÜQUQLARı

- **Səlahiyyətli dövlət orqanlarının tutduğu, həbsə aldığı, cinayət törədilməsində təqsirləndirdiyi hər bir şəxsə dərhal onun hüquqları bildirilir və tutulmasının, həbsə alınmasının və cinayət məsuliyyətinə cəlb edilməsinin səbəbləri izah edilir.**
- **Cinayət törədilməsində təqsirləndirilən hər bir şəxs məhkum edilməzdən əvvəl dinlənilməlidir.**

# MADDƏ 68. ÖZBAŞıNALıQDAN MÜDAFIƏ VƏ VICDANLı DAVRANıŞ HÜQUQU

- ***Hər kəsin*** *dövlət orqanlarının ona münasibətdə özbaşınalığı istisna edən vicdanlı davranışına hüququ vardır.*
- **Cinayət, habelə hakimiyyətdən sui-istifadə nəticəsində zərər çəkmiş şəxsin hüquqları qanunla qorunur. Zərər çəkmiş şəxsin ədalət mühakiməsinin həyata keçirilməsində iştirak etmək və ona vurulmuş zərərin ödənilməsini tələb etmək hüququ vardır.**
- **Hər kəsin dövlət orqanlarının yaxud onların vəzifəli şəxslərinin qanuna zidd hərəkətləri və ya hərəkətsizliyi nəticəsində vurulmuş zərərin dövlət tərəfindən ödənilməsi hüququ vardır.**
- ***Dövlət, dövlət qulluqçuları ilə birlikdə, dövlət qulluqçularının qanuna zidd hərəkətləri və hərəkətsizliyi nəticəsində insan hüquq və azadlıqlarına dəymiş ziyana görə və onların təminatının pozulmasına görə mülki məsuliyyət daşıyır.***

# MADDƏ 69. ƏCNƏBILƏRIN VƏ VƏTƏNDAŞLıĞı OLMAYAN ŞƏXSLƏRIN HÜQUQLARı

- **Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər AR-da olarkən, qanunla və ya AR-ın tərəfdar çıxdığı beynəlxalq müqavilə ilə başqa hal nəzərdə tutulmayıbsa, AR-ın vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilər və bütün vəzifələri yerinə yetirməlidirlər.**
- **AR ərazisində daimi yaşayan və ya müvəqqəti qalan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqları yalnız beynəlxalq hüquq normalarına və AR-ın qanunlarına uyğun olaraq məhdudlaşdırıla bilər.**

# MADDƏ 70. SIYASI SıĞıNACAQ HÜQUQU

- **Hamılıqla** qəbul edilmiş beynəlxalq hüquq normalarına uyğun olaraq AR əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə siyasi sığınacaq verir.
- Siyasi əqidəsinə görə, habelə AR-da cinayət sayılmayan əmələ görə təqib edilən şəxslərin başqa dövlətə verilməsinə yol verilmir.

# MADDƏ 71. İNSAN VƏ VƏTƏNDAŞ HÜQUQLARıNıN VƏ AZADLıQLARıNıN TƏMINATı

- Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur.
- İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz. Hər kəsin hüquq və azadlıqları bu Konstitusiyada və qanunlarda müəyyən edilmiş əsaslarla, habelə digərlərinin hüquq və azadlıqları ilə məhdudlaşır. *Hüquq və azadlıqların məhdudlaşdırılması dövlət tərəfindən gözlənilən nəticəyə mütənasib olmalıdır.*
- Müharibə, hərbi vəziyyət və fövqəladə vəziyyət, habelə səfərbərlik elan edilərkən insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsi AR-ın beynəlxalq öhdəliklərini nəzərə almaq şərti ilə qismən və müvəqqəti məhdudlaşdırıla bilər. Həyata keçirilməsi məhdudlaşdırılan hüquq və azadlıqlar haqqında əhaliyə qabaqcadan məlumat verilir.
- Heç bir halda heç kəs din, vicdan, fikir və əqidəsini açıqlamağa məcbur edilə bilməz və bunlara görə təqsirləndirilə bilməz.
- Bu Konstitusiyanın heç bir müddəası insan və vətəndaş hüquqlarının və azadlıqlarının ləğvinə yönəldilmiş müddəa kimi təfsir edilə bilməz.
- AR ərazisində insan və vətəndaş hüquqları və azadlıqları birbaşa qüvvədədir.
- İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə əlaqədar mübahisələri məhkəmələr həll edir.
- Heç kəs törədildiyi zaman hüquq pozuntusu sayılmayan əmələ görə məsuliyyət daşımır. Hüquq pozuntusu törədildikdən sonra yeni qanunla bu cür hərəkətlərə görə məsuliyyət aradan qaldırılmışsa və ya yüngülləşdirilmişsə, yeni qanun tətbiq edilir.
- Hər kəs qanunla qadağan olunmayan hərəkətləri edə bilər və heç kəs qanunla nəzərdə tutulmayan hərəkətləri etməyə məcbur edilə bilməz.
- Dövlət orqanları yalnız bu Konstitusiya əsasında, qanunla müəyyən edilmiş qaydada və hüdudlarda fəaliyyət göstərə bilərlər.

# MADDƏ 72. VƏTƏNDAŞLARıN VƏZIFƏLƏRININ ƏSASı

## IV fəsil

## VƏTƏNDAŞLARIN ƏSAS VƏZİFƏLƏRİ

- **Dövlət və cəmiyyət qarşısında hər bir şəxs onun hüquq və azadlıqlarından bilavasitə irəli gələn vəzifələr daşıyır. Hər kəsin üzərinə vəzifələr yalnız bu Konstitusiya ilə və ya qanunla qoyula bilər.**
- **Hər bir şəxs AR-ın Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir.**
- **Qanunu bilməmək məsuliyyətdən azad etmir.**

# MADDƏ 73. VERGILƏR VƏ BAŞQA DÖVLƏT ÖDƏNIŞLƏRI

- **Qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər bir kəsin borcudur.**
- **Heç kəs qanunla nəzərdə tutulmuş əsaslar olmadan və qanunda göstərilmiş həcmdən əlavə vergiləri və başqa dövlət ödənişləri ödəməyə məcbur edilə bilməz.**

# MADDƏ 74. VƏTƏNƏ SƏDAQƏT

- **Vətənə sədaqət müqəddəsdir.**
- **Vəzifəyə seçilmə və ya təyinat yolu ilə qanunvericilik, icra və ya məhkəmə hakimiyyəti orqanlarında işləyən şəxslər öz vəzifələrini dürüst və layiqincə yerinə yetirməməyə görə məsuliyyət daşıyırlar və qanunla müəyyən edilmiş hallarda and içirlər.**
- **Vəzifəyə seçilmə və ya təyinat yolu ilə qanunvericilik, icra və ya məhkəmə hakimiyyəti orqanlarında işləyən, AR Konstitusiyasına sadiq qalacağına and içmiş şəxs dövlətə qarşı cinayətdə, o cümlədən dövlətə qarşı qiyamda və ya dövlət çevrilişində ittiham edilibsə və bu ittiham əsasında məhkum olunubsa, həmin vəzifədən getmiş sayılır və bir daha bu vəzifəni tuta bilməz.**

# MADDƏ 75. DÖVLƏT RƏMZLƏRINƏ HÖRMƏT

- **Hər bir vətəndaş AR-ın dövlət rəmzlərinə - bayrağına, gerbinə və himninə hörmət etməlidir.**
- **Dövlət rəmzlərinə hörmətsizliyin nümayiş etdirilməsi qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.**

# MADDƏ 76. VƏTƏNI MÜDAFIƏ

- Vətəni müdafiə hər bir vətəndaşın borcudur.
- Qanunla müəyyən edilmiş qaydada vətəndaşlar hərbi xidmət keçirlər.
- Vətəndaşların əqidəsi həqiqi hərbi xidmət keçməyə ziddirsə, qanunla müəyyən edilmiş hallarda həqiqi hərbi xidmətin alternativ xidmətlə əvəz olunmasına yol verilir.

# MADDƏ 77. TARIX VƏ MƏDƏNIYYƏT ABIDƏLƏRININ QORUNMASı

- Tarix və mədəniyyət abidələrini qorumaq **hər bir şəxsin** borcudur.

# MADDƏ 78. ƏTRAF MÜHITIN QORUNMASı

- Ətraf mühitin qorunması **hər bir şəxsin** borcudur.

# MADDƏ 79. QANUNA ZIDD VƏZIFƏLƏRIN ICRASıNA YOL VERILMƏMƏSI

- **Heç kəs** **AR-ın Konstitusiyasına və ya qanunlarına zidd vəzifələrin icrasına məcbur edilə bilməz.**

# MADDƏ 80. MƏSULIYYƏT

- **Konstitusiyanın və qanunların pozulması, o cümlədən Konstitusiyada və qanunlarda nəzərdə tutulan hüquqlardan sui-istifadə və ya vəzifələrin yerinə yetirilməməsi qanunla müəyyən edilən məsuliyyətə səbəb olur.**